**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MUĞAM SİSTEMİNDƏ ŞÖBƏLƏRİN QARŞILIQLI MÜNASİBƏTİ VƏ İNTEQRASİYA XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **İmran Nağdəli oğlu Şıxəliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət institutunun "Musiqi folkloru" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Sənubər Yusif qızı Bağırova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Cəmilə İsmayıl qızı Həsənova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Telman Xanış oğlu Qəniyev**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Ələşrəf qızı Atakişiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
**Aytac Elxan qızı Rəhimova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya musiqi tarixində bir çox janrlarla yanaşı muğamların da bir ciddi və professional janr olduğunu qeyd etməklə, biz artıq muğamların elmi baxımdan öyrənilməsini, yəni ümumiyyətlə, muğamşünaslıq elminin aktual olmasını müəyyən dərəcədə etiraf etmiş oluruq. Belə ki, artıq şifahi professional musiqimizin bir janrı olan muğamın dünya musiqi irsinin incisi kimi qəbul olunması, onun elmi-nəzəri əsaslarının hərtərəfli öyrənilməsi də vacib və aktual mövzuya çevrilmişdir.

Muğamşünaslıq bir sıra elmi problemləri əhatə edir. Həmin problemlərin sırasında muğamların yaranması və tarixən formalaşması, janr xüsusiyyətləri, ifa mədəniyyəti, lad-məqam sisteminin öyrənilməsi kimi məsələlər əsas yerlərdən birini tutur. Bu məsələlər özündə dünyəvi əhəmiyyət daşımaqla, ilk növbədə, milli intellektual resurslardan istifadə etmək prinsipini zəruri edir. Bu baxımdan da Azərbaycan musiqişünaslarının da aparıcı mövqe tutması təbiidir, çünki muğam sənəti doğma musiqi dilində danışan və milli şüuru əks etdirən bir sənətdir.

Azərbaycan muğamşünaslığının mühüm hissəsini məqam nəzəriyyəsi təşkil edir. Təsadüfü deyil ki, Azərbaycan musiqi elminin şah əsəri sayılan, dahi Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi araşdırmasında milli musiqimizin əsasları, kökləri kimi məhz məqam sistemi nəzərdə tutulur. Bu cəhət məqam nəzəriyyəsinin milli musiqi elmində xüsusi əhəmiyyət kəsb etməsini, onun mərkəzi mövqe tutmasını göstərir. Bu isə öz növbəsində onun aktual mövzu olmasına aydın dəlalət edir. Məqam nəzəriyyəsinin bir qolu olan intiqal (modulyasiya) [Əlavələr: 6] prosesləri haqqında Ü.Hacıbəyli, sonralar isə M.İsmayılov və digər musiqişünas alimlər müəyyən fikirlər söyləsələr də, bu sahə tam, əhatəli və sistemli şəkildə tədqiq edilməmişdir.

Xalq musiqisi və bəstəkar əsərlərində rast gəlinən yönəlmə (Ə.Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğəti"ndə "yönəlmə" termini "sapma", "sapınma" kimi verilmişdir. Lakin "sapma" termini Azərbaycan musiqişünaslığında tam oturuşmadığı və istifadə olunmadığı üçün işimizdə "yönəlmə" terminindən istifadə

olunmuşdur) və intiqallar, məqam nəzəriyyəsində mümkün olan yönəlmə və intiqalların hamısını özündə əks etdirmir. Məhz bu baxımdan, mövzu öz aktuallığını hələ də saxlayır. Ona görə də, tədqiqatımızda təhlil etdiyimiz intiqal məsələləri, gələcək istiqamətlərin müəyyənləşməsi üçün bir mənbə kimi ehtimal oluna bilər.

Müasir Azərbaycan musiqisinin məqam sistemi öz mənbəsini orta əsr Şərq məqam sistemindən götürür. Müasir Azərbaycan məqamları Şərqdən yalnız bir çox adlarını deyil, həmçinin bəzi hallarda öz interval tərkibini və tetraxord quruluşunu da əxz etmişdir. Bu və bir çox digər xüsusiyyətlər kimi müasir Azərbaycan musiqisinin məqam sistemini də orta əsr Şərq məqam sistemi ilə əlaqələndirilməsini təbii olaraq meydana gətirir.

Məqam nəzəriyyəsi Şərq musiqi elmində qədim bir tarixə malikdir. O, hələ IX–X əsr musiqişünas-alimlərindən Əl-Kindi və Əl-Fərabidən başlayaraq bir çox görkəmli Şərq nəzəriyyəçi alimlərin, o cümlədən əslən Azərbaycan türkü olan Səfiəddin Urməvi və Əbdülqadir Marağalı kimi alimlərin də elmi fikirləri əsasında formalaşmışdır. Bu və digər orta əsr Şərq alimlərin elmi irsi XIX–XX əsrlərdə bir çox elmi araşdırmalarda kifayət qədər elmi şərhini tapmışdır. Orta əsrlər Şərq musiqisinin elmi araşdırılması ayrı bir mövzü olduğu üçün, bizim tədqiqatımız əsasən məqam nəzəriyyəsinin inkişafının yeni mərhələsi üzərində qurulmuşdur.

Müasir Azərbaycan məqam nəzəriyyəsinin öyrənilməsi, ilk növbədə, Azərbaycanin dahi bəstəkar və musiqişünas-alimi Ü.Hacıbəylinin adı ilə bağlıdır[1,2,3]. O, 1925-1945-ci illər ərzində yazdığı "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi əsəri ilə müasir Azərbaycan musiqişünaslığının, o cümlədən də müasir Azərbaycan məqam nəzəriyyəsinin əsasını qoymuş oldu.

Ü.Hacıbəylidən sonrakı dövrdə məqam nəzəriyyəsi sahəsində elmi araşdırmalar haqqında danışarkən, ilk növbədə, musiqişünas-

---

[1] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019. – 360 s.
[2] Hacıbəyli, Ü.Ə. Seçilmiş əsərləri. / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – İki cilddə, I c. – 2005. – 408 s.
[3] Hacıbəyli, Ü.Ə. Seçilmiş əsərləri. / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb. – İki cilddə, II c. – 2005. – 456 s.

alim M .İsmayılovun da elmi əsərlərinin adı çəkilməlidir[4,5,6,7,8,9]. M.İsmayılovun məqam nəzəriyyəsi müəyyən dərəcədə Ü.Hacıbəyli nəzəriyyəsinin davamı olaraq eyni zamanda özündə yeni fikirlər və yeni müddəalar da daşıyır. Hətta müasir Azərbaycan musiqi terminologiyasında lad termininin qədim məqam termini ilə əvəz olunmasında da M.İsmayılovun böyük rolu olmuşdur. Bizim elmi işimiz üçün onun “Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodiki oçerklər”, “Azərbaycan xalq musiqisinin janrları”, “Azərbaycan xalq məqamlarının qohumluq münasibəti haqqında”, “Azərbaycan musiqisinin məqam və muğam nəzəriyyəsi” əsərləri istinad mənbəyi kimi xüsusi əhəmiyyət kəsb edir. Bu elmi yazılarda bir sıra fikirlər, məsələn, Azərbaycan məqamlarının istinad pərdələri, alterasiya və xromatizm xüsusiyyətləri, II növ hümayun məqamı, Azərbaycan məqamlarının major və minor sistemi ilə əlaqəsi, Azərbaycan məqam və muğamlarının qohumluq münasibətlərinə dair elmi mülahizələrinin bizim tədqiqatımız üçün təkanverici əhəmiyyətə malik olmasını etiraf edə bilərik.

Azərbaycan muğam-məqam nəzəriyyəsinə aid bəzi məsələlər, eləcə də bir sira müasirlərimiz olan musiqişünas-alimlərin əsərlərində araşdırılmışdır. Təbiidir ki, muğam janrının öyrənilməsinə dair bir sıra ədəbiyyat ilə tanış olmuş və bu sahədə bir çox müəlliflərin əsərlərini nəzərdən keçirtmişik. Muğamların musiqi formasının nəzəri problemləri Azərbaycan musiqişünas alimlərindən D.Mahmudbəyov, S.Bağırova, Ş.Mahmudova, F.Çələbiyev, rus alimlərindən V.Vinoqradov, B.Asafyev və V.Sadıkovanın yaradıcılığında öz əksini

---

[4] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər / M.C.İsmayılov. – Bakı: Mütərcim. – 2023. – 120 s.

[5] İsmayılov, M.C. Azərbaycan musiqisinin məqam və muğam nəzəriyyəsi / M.C.İsmayılov. – Bakı: MTM innavation, – 2016. – 224 s.

[6] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənmiş və tamamlanmış III nəşr. / M.C.İsmayılov. – Bakı: Mütərcim, – 2023. – 136 s.

[7] İsmayılov, M.C. Azərbaycan xalq məqamlarının qohumluq münasibəti haqqında // – Баку: Ученые записки. АГК им. У. Гаджибекова. серия XIII, – 1972. № 9, – с. 5-43.

[8] Исмаилов, М.Дж. К вопросу о структуре лада чаргях. // – Баку: Ученые записки, АГК им. У. Гаджибекова. Серия XIII, – 1975. №1, – с. 3-9.

[9] Исмаилов, М.Дж. Народная музыка Азербайджана / М.Дж.Исмаилов, Л.В.Карагичева / Азербайджанская музыка. – Москва: Музыка, – 1961. – с. 5-63.

tapmışdır. Muğamların bir janr kimi formalaşması, onun tarixi barədə Z.Səfərova[10,11], S.Ağayeva[12], R.İmrani[13], S.Bağırova[14,15,16] öz tədqiqatlarında kifayət qədər məlumat vermişlər. Muğamların estetik mahiyyəti barədə Gülnaz Abdullazadə[17], fəlsəfi konsepsiyaları haqqında Sənubər Bağırova, dəstgahların ritmikası haqqında Elxan Babayev[18], muğamlarda melodik inkişafın prinsipləri kimi məsələlər barədə Elmira Abbasova[19], Nəriman Məmmədov, Rəna Məmmədova[20], Sənubər Bağırova, muğamların və onların tərkibinin tarixi və nəzəriyyəsi barədə Ramiz Zöhrabovun[21,22,23] elmi işlərində müəyyən fikirlər söyləmişlər. Bundan başqa, Cəmilə

---

[10] Səfərova Z.Y Üzeyir Hacıbəyovun yaradıcılığında nəzəri və estetik problemlər. B.: Elm, 1985. 208 s.

[11] Səfərova Z.Y Azərbaycanın musiqi elmi (XIII-XX əsarlər). B.: Elm, 1998. 584 s.

[12] Агаева С.Х. Абдулгадир Марагаи. Б.: Язычы, 1983. 98 с

[13] İmrani R.H. Azərbaycan muğam janrının yaranması və inkişaf tarixi. B.: ADPU, 1994. 251 s.

[14] Bağırova, S.Y. Azərbaycan muğamı. Məqalələr, məruzələr, tədqiqatlar. / S.Y.Bağırova. – Bakı: Elm, – 2007. – 152 s.

[15] Bağırova S.Y. "Azərbaycan musiqisi və musiqiçiləri" məcmuəsi. / S.Y.Bağırova. – Bakı: Tək Nur, - 2011

[16] Багирова С.Ю. Азербайджанский мугам: статьи, исследования, доклады / С.Ю.Багирова. – Баку: Элм, – т.1. – 2007, – с. 251.

[17]Abdullazadə, G.A. Qədim və Orta əsrlərin musiqi mədəniyyəti. (Tarixi-fəlsəfi təhlil) / G.A.Abdullazadə. – Bakı: Şərq-Qərb, 2009. – 272 s.

[18] Babayev, E.Ə. Azərbaycan muğam dəstgahlarında ritm intonasiya problemləri / E.Ə.Babayev. – Bakı: Ergün, – 1996. – 126 s.

[19] Абасова, Э.А. Роль и значение мугама в историческом процессе развития азербайджанской музыки / Э.А.Абасова, Н.Г.Мамедов // Традиции музыкальных культур народов Ближнего и Среднего Востока и современность. – Москва: Советский композитор, – 1987. – с. 43-46.

[20] Məmmədova, R.A.  Azərbaycan muğamı / R.A. Məmmədova. – Bakı: Elm, – 2002. – 280 s.

[21] Zöhrabov, R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. – Bakı: Təhsil, – 2013. – 336 s.

[22] Zöhrabov, R.F. "Çahargah" muğam dəstgahının nəzəri əsasları / R.F.Zöhrabov. - Bakı: Mars Print, – 2002. – 132 s.

[23] Zöhrabov, R.F. "Rast" muğam dəstgahının nəzəri əsasları / R.F.Zöhrabov. – Bakı: Mars Print, – 2002. – 146 s.

Həsənovanın[24,25,26] tədqiqatlarında Azərbaycan məqamlarının monodik və harmonik quruluşu, Azərbaycan məqamları arasında qarşılıqlı əlaqələr, S.Bağırovanın yaradıcılığında orta əsr məqam sisteminin təkamülün yeni mərhələsi kimi dəstgah sisteminin, yəni iri məqam silsiləsinin XVIII əsrdə yaranması kimi fikirlər, eləcə də onun dəstgahın çərçivəsində məqamların qohumluq münasibətləri haqqında nəzəriyyəsi öz əksini tapmışdır.

Lakin biz mövzumuzun işlənmə dərəcəsini əhatə edən elmi ədəbiyyatın icmalında yalnız müasir Azərbaycan musiqisinin məqam nəzəriyyəsinə aid olan əsərləri daxil etməyi lazım bilmişik. Etiraf edək ki, müasir Azərbaycan musiqisinin məqam nəzəriyyəsi, orta əsrlər Şərq musiqisinin məqam nəzəriyyəsinə nisbətən müqayisə edilməz dərəcədə daha az tədqiq olunmuşdur və bu elmi sahə üzrə çox məhdud sayda araşdırmalar vardır. Lakin bu araşdırmalar arasında çox əsaslı və əhəmiyyətli elmi əsərlərə də rast gəlmək olar.

Bu tədqiqatlarda müəyyən məsələlər araşdırılmış olsa da, bir çox suallar hələ də öz həllini gözləyir və onların elmi tədqiqində və yaxud bəzi araşdırılmış məsələlərdə yeni elmi yanaşmalara ehtiyac var.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan muğamlarında olan şöbələr və Azərbaycan məqamları üzərində qurulan digər xalq musiqi nümunələri təşkil edir.

Tədqiqatın predmetlərinə isə Azərbaycan muğamlarının qarşılıqlı münasibəti, bu münasibəti yaradan səbəblər, muğamlar arasında olan inteqrasiya xüsusiyyətləri, muğamlar əsasında yaranan məqamlar arasında olan intiqal və yönəlmə prinsipləri, məqam münasibətlərində olan qanunauyğunluqlarını aid edilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan muğamlarında rast gəlinən müştərək şöbələr, bu şöbələrin təsnifatı; Azərbaycan muğamlarını təşkil edən şöbələrin məqam əsasına istinad edərək bu muğamlar arasında intiqal xüsusiyyətlərinin və məqamlararası intiqal prinsiplərinin araşdırılmasından ibarətdir. Bu

[24] Həsənova, C.İ. Ü.Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları / C.İ.Həsənova. – Bakı: Mars-print. – 2009. – 320 s.

[25] Həsənova, C.İ. Azərbaycan musiqisinin məqamları / C.İ.Həsənova. – Bakı: Elm və təhsil. – 2012. – 231 s.

[26] Həsənova, C.İ. Azərbaycan bəstəkarlarının əsərlərində milli məqamların təzahürü / C.İ.Həsənova. – Bakı: Mars-print. – 2004. – 136 s

məqsəddən irəli gələn vəzifələr bir çox elmi jurnallarda, yerli və beynəlxalq elmi simpoziumlarda bizim tərəfimizdən olan çıxışlarda öz əksini tapmışdır.

Qeyd edilən məqsədlərin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

– Azərbaycan muğam sisteminə daxil olan hər bir muğam və onu təşkil edən şöbələrin məqam əsasını müəyyən etmək. Bu müəyyənlik üçün Ü.Hacıbəylinin tərtib etdiyi, xalq musiqimizin əsasını təşkil edən 7 əsas məqama istinad etmək;

– Azərbaycan muğamı və məqam nəzəriyyəsi sahəsində tədqiqatları ilə tanınmış Ü.Hacıbəyli və onun layiqli davamçısı olmuş musiqişünas-alim, professor M.İsmayılovun elmi araşdırmalarından bəhrələnmək;

– Azərbaycan musiqisinin səs sistemi haqqında deyilən fikirlərə aydınlıq gətirmək. Azərbaycan musiqisinin səs sistemini Avropa səs sisteminə uyğunlaşdırılması metodlarını araşdırmaq;

– Muğam şöbələrinin qarşılıqlı münasibətlərində olan qanunauyğunluqlar və bu qanunauyğunluqları şərtləndirən səbəblərini əsaslı şəkildə izah etmək;

– Azərbaycan məqamlarının alterasiya və xromatizm xüsusiyyətlərini bir daha təhlil etmək, alterasiyanın əmələ gəlmə səbəblərini göstərmək, bu səbəblər nəticəsində yeni alterasiyaların əmələ gəlməsinin mümkünlüyünü önə çəkmək;

– Azərbaycan musiqisində mövcud olan muğam, şöbə və guşə adlarının təfsirini vermək və onları qruplarla səciyyələndirmək;

– Avropa səs sisteminə uyğun olan məqam nəzəriyyəsinə əsaslanan muğamlarımızda məqam əsası eyni olan müştərək muğam şöbələri təyin etmək, onların oxşar və fərqli xüsusiyyətlərini göstərmək və müştərək şöbələrin məqamların qarşılıqlı münasibətlərində oynadıqları əsas rolunu açıqlamaq. Bu şöbələr vasitəsi ilə Azərbaycan musiqisində yönəlmə – intiqal prinsiplərini incələmək;

– Muğam şöbələrinin qarşılıqlı münasibətlərində olan qanunauyğunluqlar və bu qanunauyğunluqların yaranma səbəblərini əsaslı şəkildə izah etməklə bəstəkar yaradıcılığında tətbiqi yollarını araşdırmaq;

– Araşdırmalarımızdan və əldə etdiyimiz nəticələrdən bəhrələnən və daha çox ənənəvi musiqi ruhunda yazan bəstəkarları, yaradıcılığında yeni məqam qarşıdurmaları yaratmaqla tonal-məqam rəngarəngliyinə istiqamətləndirmək;

– Azərbaycan muğam sistemində muğam şöbələri vasitəsi ilə intiqal xüsusiyyətlərini təyin etmək.

**Tədqiqat metodları.** Araşdırma zamanı tarixi-nəzəri, tarixi-müqayisəli, analitik təhlil metodlarına müraciət edilmişdir. Ü.Hacıbəyli, M.İsmayılov, X.Məlikov, R.Zöhrabov, T.Məmmədov, S.Bağırova, C.Həsənova, C.Mahmudova və b. alimlərin tədqiqatlarından da metodoloji baza kimi istifadə edilmişdir. Bundan başqa, əyani metodik nümunələrin da adını çəkə bilərik. Əyani metodik nümunələr deyəndə, dissertasiyada müəllifi olduğumuz musiqi nümunələri ilə nəzəri fikirlərimizi təcrübi şəkildə təqdim etməyi nəzərdə tuturuq. Bu zaman biz həm də məqamlararası intiqal münasibətlərinin Azərbaycan ənənəvi musiqisi və professional bəstəkarlıq yaradıcılığında əhəmiyyətini üzə çıxartmağa çalışmışıq.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatda məqamlararası münasibətlər, məqam sistemi daxilində intiqal imkanları aşağıdakı müddəalarda öz nəticəsini tapmışdır:

–Müasir Azərbaycan məqam nəzəriyyəsi Şərq məqam nəzəriyyəsinin inkişafında yeni mərhələ kimi göstərilir.

– Azərbaycan məqamlarının səsdüzümündə alterasiyaların əmələ gəlməsinin dörd səbəbi izah olunur.

– Azərbaycan muğam sistemində müştərək şöbələr beş qrupda cəmlədirilir.

– Bütün Azərbaycan muğam və dəstgah şöbələrinin məqamları arasında müəyyən dərəcədə qohumluq münasibətlərinin olduğu müəyyənləşdirilir;

– Məqamlar arasında olan ortaq pərdələr qohumluq münasibətlərini tənzimləyən əsas amil kimi göstərilir;

– Azərbaycan məqamları arasında mövcud olan qohumluq münasibətləri özünü dörd dərəcədə büruzə verir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq Azərbaycan musiqisinin məqam sistemində məqamlararası intiqal xüsusiyyətlərinin təsnifatı aparılmışdır. Bu da qarşıya qoyulan

vəzifələrin həlli zamanı əldə olunan nəticələrdə öz əksini tapır. Belə ki, muğamların əsaslandığı məqam sistemi ilk dəfə olaraq Azərbaycan musiqisinin "rədif"i (rədif – hazırda musiqi təcrübəsində mövcud olan bütün muğam dəstgahlarını özündə birləşdirən bir dövrə) çərçivəsində, yəni bir meqa dövr kimi nəzərdən keçirilir. Ona görə də məqamların qohumluq münasibətləri kimi məsələ bizim tərəfimizdən daha geniş miqyasda təhlil olunur. Məhz məsələnin bu cür qoyuluşundan həmçinin məqamların alterasiya xüsusiyyətləri, bir məqamdan digər məqama olan yönəlmə və intiqal, mayə pərdəsinin rolu kimi özəl suallar əmələ gəlir. Dissertasiyamızda bu suallardan bəziləri ilk dəfə elmi məsələ kimi qoyulur, digərləri isə burada fərqli şəkildə əhatəli və geniş təhlil olunur. Məsələn, Ü.Hacıbəyli tərəfindən praktiki tərzdə göstərilmiş və M.İsmayılovun əsərlərində müəyyən dərəcədə elmi şərhini tapmış məqamlararası intiqal prinsipləri bizim işimizdə daha da dərindən tədqiq olunmuşdur. Eləcə də professor M.İsmayılov tərəfindən ilk dəfə elmi müstəviyə gətirilmiş məqamlararası qohumluq məsələsi bizim dissertasiyamızda daha geniş şəkildə araşdırılmış və elmi təsnifatını tapmışdır. Eyni zamanda məqamlararası qohumluq münasibətlərinin yaranmasında müştərək şöbələrin rolu tədqiqat mövzusu kimi ilk dəfə dissertasiyada qoyulmuş və onun elmi şərhi verilmişdir. Həmçinin dissertasiyada Azərbaycan məqam nəzəriyyəsində ilk dəfə olaraq alterasiyaların əmələgəlmə səbəbləri göstərilmişdir.

Dissertasiyada tərtib olunan cədvəllər də xüsusi elmi innovativ əhəmiyyət kəsb edir. Bu cədvəllər Azərbaycan məqamlarının qohumluq münasibətlərini özündə tam əks etdirir. Vizual şəkildə qavramanı sürətləndirmək üçün cədvəllərdə hər bir məqam ayrı-ayrı rənglərin fonunda əks olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** aşağıdakı meyarlarla müəyyən edilir:

– Dissertasiyanın elmi nəticələri muğam və məqam nəzəriyyəsinin inkişafına müəyyən töhfədir. Burada ilk dəfə qoyulan məsələlər gələcək elmi araşdırmalar üçün yeni təkan və zəmin ola bilər. Bundan başqa, Azərbaycan və bir çox xarici ölkələrin musiqi tədqiqatçıları da araşdırmalarımıza əsaslanaraq daha düzgün elmi nəticələr əldə etmiş olarlar.

– Tədqiqatın materiallarından “Azərbaycan xalq musiqisin əsasları” və “Muğam tarixi” fənnlərinin tədris olunduğu bütün ali və orta musiqi təhsil ocaqlarında, eyni zamanda bu sahədə çalışanların tədqiqat işlərində, nəzəri və praktiki kurslarda faydalanmaq mümkündür.

– Dissertasiyamızın nəticələri ali və orta musiqi təhsili müəssisələrində tədris mövzusu kimi “Azərbaycan xalq musiqisinin əsasları” kursunun bir hissəsini təşkil edə bilər.

– Praktiki baxımdan dissertasiyanın elmi nəticələri, ilk növbədə, muğam ifaçılarına əməli yardım ola bilər. Belə ki, Azərbaycan muğamlarının məqam sistemi daxilində qohumluq münasibətlərinin və məqam-tonal variantlılığının üzə çıxarılması muğam ifaçılarının yaradıcılığında daha geniş imkanlara yol açmış olar.

– Həmçinin tədqiqatımızdan öz yaradıcılığında muğam materialına əsaslanan bəstəkarlar da bəhrələnərək daha maraqlı, rəngarəng kompozisiya yaratmaq imkanını və daha sərbəst intiqal texnikasını əldə edə bilərlər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın elmi müddəaları məqalə şəklində müxtəlif dövrü mətbuatda, məcmuələrdə, beynəlxalq konfrans və simpoziumlarda çap olunmuşdur. Onların arasında “Muğam aləmi” V beynəlxalq festivalı çərçivəsində keçirilən “Azərbaycanda muğam elmi: reallıqlar və perspektivlər” mövzusunda elmi simpoziumu (7-9 mart 2018 il), “IV Uluslararası İpekyolu Müzik ve Sanat Konferansı”nı (1-3 noyabr 2023 il) və LXXIX Международная научная практическая конференция “Научный форум: Филология, искусствоведение и культурология”.(14.03.2024 il) adlı elmi tədbiri qeyd edə bilərik. Dissertasiyanın əsas müddəa və nəticələri çoxsaylı məqalələrdə əksini taparaq, yerli və xarici elmi nəşrlərdə dərc olunmuşdur. Bu nəşrlər arasında Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan bir çox resenziyalı jurnallarda və Google Scholar, İndex Copernicus və s. kimi elmmetrik bazalarda indeksləşən “International journal of innovative technologies in social science” və “TÜRK MÜZİĞİ” jurnallarını misal göstərmək olar. Dissertasiyanın mövzusuna uyğun olaraq bizim tərəfimizdən yazılan “Azərbaycan məqam nəzəriyyəsi” adlı kitab

“Azərbaycan xalq musiqisinin əsasları” fənni üzrə dərs vəsaiti kimi təsdiq olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun “Musiqi folkloru” şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, doqquz paraqraf, beş bənd, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən, giriş bölməsi – 9 səhifə, 15,050 işarə; birinci fəsil – 28 səhifə, 49,277 işarə; ikinci fəsil – 42 səhifə, 60,530 işarə; üçüncü fəsil– 64 səhifə, 60,726 işarə sayı həcmindədir. Dissertasiyanın Nəticə bölməsi – 11 səhifə, 20,401 işarə; istifadə edilmiş ədəbiyyat siyahısı – 12 səhifə, 16,349 işarə, ümumi dissertasiya isə (“İstifadə edilmiş ədəbiyyat siyahısı” və “Əlavələr” bölmələri istisna olmaqla) 156 səhifə və 207,556 işarə sayı həcmindədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqatın mövzusu təsdiq olunanda Azərbaycan məqam nəzəriyyəsi sahəsində kifayət qədər işıqlandırılmamış məsələlərin öyrənilməsi və yeni fikirlərin formalaşdırılması qarşımıza məqsəd qoyulmuşdu. Əldə olunan nəticələri əsaslandırmaq üçün müəllif, təməli Ü.Hacıbəyli tərəfindən qoyulmuş və M.İsmayılov tərəfindən davam etdirilən Azərbaycan məqam nəzəriyyəsinin əsas elmi konsepsiyalarını, məqam nəzəriyyəsi sahəsində çalışan digər musiqişünas alimlərin əldə etdiyi nəticələri bir daha nəzərdən keçirir. Qeyd etdiyimiz problemlər dissertasiya işinin başlıca müddəalarını və strukturunu müəyyən etmişdir.

**“Giriş”**də mövzunun aktuallığı əsaslandırılır, problemin elmi işlənmə dərəcəsi, məqsəd və vəzifələri, obyekti, predmeti, metodoloji əsası müəyyənləşdirilir, elmi yeniliyi üzə çıxarılır, nəzəri və praktiki əhəmiyyəti göstərilir, işin strukturu təsvir olunur.

**“Müasir Azərbaycan məqam sistemi Şərq məqam nəzəriyyəsinin tarixi konteksində”** adlı birinci fəslin **“Ü.Hacıbəlinin məqam nəzəriyyəsində orta əsr Şərq**

**nəzəriyyəsinin izləri”** adlı ilk paraqrafında bildirilir ki, məqam nəzəriyyəsi hələ IX əsrin bir çox görkəmli Şərq musiqişünas alimlərin risalələrində aparıçı yer tuturdu. O dövrün böyük alimlərindən Əl-Kindi (801-873), Əbu-Nəsr əl-Fərabi (872-950), İbn Sina (980-1037), Səfiəddin Urməvi (1216-1294), Əbdülqadir Marağalı (1353-1435) və başqaları Şərq məqam nəzəriyyəsinin inkişafında ən mühüm fiqurlar olmuşdular.

Şərq məqam nəzəriyyəsi XIX əsrin sonları, XX əsrin əvvəllərində öz inkişafını artıq yeni mərhələdə davam etdirdi ki, bunun da bir qolunu Ü.Hacıbəylinin adı ilə bağlamaq olar. Ü.Hacıbəylinin məqam nəzəriyyəsi, nəinki Azərbaycan musiqisi nəzəriyyəsində, eləcə də XX əsr Şərq musiqisinin nəzəri əsaslarının öyrənilməsində yeni mərhələnin başlanğıcını qoymuşdur. Ü.Hacıbəylinin məqam nəzəriyyəsində orta əsr Şərq musiqi nəzəriyyəsinin izləri özünü bir sıra elementlərlə büruzə verir. Bunlardan biri məqamın səssırasının tetraxord birləşmələri əsasında qurulmasıdır. Ü.Hacıbəylinin nəzəriyyəsində də məqamların struktur özəyini tetraxord təşkil edir və bütövlükdə Azərbaycan məqam sistemi beş növ tetraxordun dörd üsul ilə birləşməsi nəticəsində əmələ gəlir. Beş növ tetraxorddan dördü xalis, biri isə əksidilmiş kvarta həcmindədir.

Bu dövrün daha proqressiv hadisələrindən bir Ü.Hacıbəyli tərəfindən Azərbaycan muğam sisteminə yenidən baxılması oldu. O dövrlər Azərbaycanda olan muğam məktəblərində xalq musiqisi tədris və təbliğ edilməsinə baxmayaraq bəzən eyni muğamın tərkibi bölgələrdən asılı olaraq biri birindən fərqlənirdi. Üzeyir bəy bu məsələyə obyektiv, elmi yanaşaraq hər bir muğamın ümumi dramaturji xüsusiyyətlərinə uyğun olaraq şöbə və guşələri saxlamaqla musiqi təhsil müəssələri üçün vahid muğam cədvəlləri tərtib etmişdir ki, bu proqramdan indi də istifadə olunur. Bundan başqa, 1925-1945-ci illər ərzində yazdığı “Azərbaycan xalq musiqisinin əsasları” adlı elmi əsərində musiqimizin əsasını təşkil edən məqamları Avropa musiqi sisteminə uyğunlaşdırmışdı.

Bu paraqrafda həmçının Azərbaycan musiqisinin səs sistemi haqqında Ü.Hacıbəylinin dəyərli fikirləri qeyd olunur. Bildiyimiz kimi, orta əsrlərdə azərbaycanlı musiqişünas S.Urməvi ilk dəfə olaraq

musiqinin 17 pilləli səsdüzümünü yaratmışdır. Ondan sonra Ə.Marağalı də Şərq musiqisinin 17 pilləli səs sisteminə malik olduğunu bildirmişdi. Ü.Hacıbəyli Azərbaycan musiqisinin qeyri müntəzəm temperasiyaya əsaslanmasını bir çox elmi əsərlərində qeyd etmişdir. 1929-cu ildə “Na rubeje vostoka” jurnalında çap olunan “Azərbaycan türk xalq musiqisi haqqında”[27] adlı elmi məqaləsində yazır ki, Azərbaycan xalq musiqisi ərəb-fars musiqi sisteminə əsaslanır. Bundan başqa, “Azərbaycan xalq musiqisinin əsasları” adlı əsərində isə səs sisteminə ayrıca bir bölmə həsr edir. Burada Avropa və Azərbaycan musiqilərinin səs sistemlərini müqayisə edərkən qeyd edir ki, “*Avropa musiqisindəki oktavada pərdələr müntəzəm, Azərbaycan musiqisində isə qeyri-müntəzəm temperasiya olunmuşdur*”[28].

Ü.Hacıbəylinin, M.İsmayılov və onların davamçıları olan Z.Səfərova, E.Babayev, F.Çələbiyev, R.Məmmədova, R.Zöhrabov, S.Bağırovanın Azərbaycan məqam nəzəriyysinin haqqında yazdıqları əsərlərinin mahiyyətini təhlil edərkən belə qərara gəlirik ki, müasir Azərbaycan məqam nəzəriyyəsi orta əsr Şərq nəzəriyyəsinin davamı və inkişafı kimi təqdim edilə bilər.

**“Müasir Azərbaycan məqam nəzəriyyəsinin inkişafı”** adlı ikinci paraqrafda Azərbaycan bəstəkarlıq məktəbinin və musiqişünaslığının banisi Ü.Hacıbəylinin məqam nəzəriyyəsi və onun inkişaf etdirilməsində xidmətləri olan musiqişünas alimlərdən bəhs olunur.

Ü.Hacıbəylidən sonra Azərbaycan musiqişünaslığını, xüsusən məqam nəzəriyyəsini inkişaf etdirən professor M.İsmayılov olmuşdur. O, Ü.Hacıbəylinin məqam nəzəriyyəsinə əsaslanaraq yeni müddəalarla onu daha da inkişaf etdirmiş, həmçinin elmi araşdırmalarında bir çox öyrənilməmiş məsələlərə toxunmuşdur. Professor öz əsərlərində Azərbaycan məqamlarının istinad pərdələri, alterasiya və xromatizm xüsusiyyətləri, II növ hümayun məqamı, muğam və məqam terminologiyası, muğam ailələri, Azərbaycan

---

[27] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019. – s. 131

[28] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019. – s.22

məqam sisteminə yeni baxış kimi əskildilmiş oktava həcmində olan 8 pilləli məqamlar, məqamlararası qohumluq münasibətləri kimi yeni məsələlər haqqında öz mülahizələrini yürütmüşdür.

Azərbaycan muğam-məqam nəzəriyyəsinə aid bəzi məsələlər eləcə də bir sira müasirlərimiz, musiqişünüs-alimlərin əsərlərində araşdırılmışdır. R.Zöhrabov, Z.Səfərova, R.Məmmədova, S.Ağayeva, R.İmrani, G.Abullazadə, E.Babayev, S.Bagırova, C.Həsənovanın tədqiqatlarında qiymətli məlumatlara rast gəlmək olar. Təbii ki, biz muğam-məqam janrının öyrənilməsinə aid digər ədəbiyyatlar ilə də tanışıq və bu sahədə daha çox müəlliflərin əsərlərini nəzərdən keçirtmişik. Lakin bizim işimizdə Azərbaycan məqamlarının xüsusiyyətləri və onların qarşılıqlı münasibətləri araşdırıldığı üçün Ü.Hacıbəyli və M.İsmayılovun nəzəri ideyalarını özümüz üçün başlanğıc nöqtələr sayırıq. Xüsusilə Azərbaycan məqamlarının alterasiyası və qohumluq əlaqələri kimi məsələlərdə Üzeyir ənənələrinə sadiq qalaraq, M.İsmayılovun inkişaf etdirdiyi nəzəri sualları əsas tuturuq.

Tədqiqatımız boyu Azərbaycan musiqi nəzəriyyəsinin müəyyən sahələri üzrə yeni müddəalarla çıxış edirik. Məqamların alterasiya xüsusiyyətləri barədə də bizim öz mülahizələrimiz vardır.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan məqamlarında alterasiyalar məqam nəzəriyyəsinin bir bölümünü təşkil edir. Alterasiya məsələsinə toxunaraq Ü.Hacıbəyli "*Xalq musiqi üslubu məqamlarda xromatik hərəkətə çox məhdud ölçüdə, o da yalnız rast, şur və segah kimi məqamlarda imkan verir*"[29] kimi bir fikrə gəlməsinə baxmayaraq, M.İsmayılov isə öz araşdırmalarında alterasiyaların bütün Azərbaycan məqamlarında mümkünlüyünü qeyd edir. O, hər bir məqamda mümkün olan alterasiyaları pərdələrdə göstərməklə onu daha da inkişaf etdirməyə nail olur. Azərbaycan məqamlarında alterasiya məsələsi Ü.Hacıbəyli tərəfindən qeyd olunsa da və sonralar M.İsmayılov tərəfindən genişləndirilsə də onun əmələ gəlmə səbəbləri hələ də araşdırılmamış qalmışdır. İlk dəfə olaraq bizim tərəfimizdən Azərbaycan məqamlarında alterasiyanın yaranma səbəbləri aşkar edilmiş və dörd qrupda cəmləşdirilmişdir:

---

[29] Hacıbəyli, Ü.Ə. Azəbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Şərq-Qərb, – 2019.– s. 117

1. Məqamın səssırasında olmayan, lakin həmin məqama əsaslanan melodiyada istifadə olunan və ötəri xarakter daşıyan alterasiyalar.

2. Dəstgahın əsaslandığı məqam ilə onu təşkil edən şöbələrin əsaslandıqları məqamların səs düzümləri arasında olan fərqdən əmələ gələn alterasiyalar.

3. Qeyri müntəzəm temperasiyaya əsaslanan xalq musiqi nümunələrinin müntəzəm temperasiyada ifası zamanı yaranan interval fərqlərinin əmələ gətirdiyi alterasiyalar.

4. Xalq musiqi nümunələrinin melodiyalarında istifadə olunan melizmlərin yaratdığı alterasiyalar.

Hər bir qrup təhlil olunmuş və təsnifatı verilmişdir. İlk dəfə olaraq bizim tərəfimizdən xalq musiqimizdə mövcud olan və Ü.Hacıbəyli tərəfindən təsdiq edilən qeyri müntəzəm temperasiyalı səslərin, məqamlarda olan müntəzəm temperasiyalı səslərə uyğunlaşdırılması, alterasiyaların əmələ gəlmə səbəbi kimi qeyd olunmuşdur.

Tədqiqatımız boyu muğam və şöbələrdən istifadə olunduğu üçün onların adlarının mənası haqqında ilk fəslin "**Azərbaycan musiqisində mövcud olan dəstgah, muğam, şöbə və guşə adlarının təfsiri**" adlı üçüncü paraqrafında məlumat verilir. Muğam adlarının məna xüsusiyyətlərini nəzərə alaraq, onlar 5 qrupda cəmləşdirilir:

1. Musiqinin melodik intonasiyasına görə adlanan muğam, şöbə və guşələr ("Nişibü fəraz", "Zəngi şötör", "Balu kəbutər").

2. Yaratdığı əhvali ruhiyyəyə və obraza görə adlanan muğam, şöbə və guşələr ("Bidad", "Bəstə nigar", "Dilkeş", "Dilrüba" və s.).

3. Qərar tutduğu ucalıq tonuna görə adlanan muğam, şöbə və guşələr. ("Dügah", "Segah", "Çahargah", "Pəncigah").

4. Şəxs və millət adları ilə adlanan muğam, şöbə və guşələr ("Baba Tahir", "Hacı Yuni", "Şah Xətai", "Çoban bayatı").

5. Məkan adları ilə adlanan muğam, şöbə və guşələr ("Azərbaycan", "Bayatı türk", "Bayatı kürd", "Kərküki", "Şikəsteyi-fars" və s.).

Dissertasiyanın **"Müasir Azərbaycan muğam və dəstgahlarının qohum məqam problemləri"** adlanan ikinci fəslində iki paraqraf vardır. Birinci paraqraf **"Azərbaycan rədifində şöbələrin məqam əsasları və müştərək şöbələr"** adlanır. Yeddi əsas məqama

əsaslanan və Azərbaycan musiqi praktikasında çox istifadə olunan muğamlardan başqa onların şöbələrinin məqam əsaslarının öyrənilməsi də işimizdə olan vacib amillərdəndir. Ona görə muğam şöbələrinin məqam əsasları və səs ucalığı təyin olunaraq cədvəllərdə yerləşdirilmişdir.

Azərbaycan muğam sistemində rast gəlinən müştərək şöbələr təhqiqatımızın əsas mövzusunun elementlərindən olduğu üçün, onların araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Çünki muğamlar arasında inteqrasiya xüsusiyyətlərini və intiqal prinsiplərini yaradan məhz müştərək şöbələrdir. Odur ki, bu paraqrafda müştərək şöbələr məqam xüsusiyyətlərinə və daşıdığı adların mənasına görə qruplarda səciyyələnmiş və hər qrup ayrı ayrı bəndlərdə təhlil olunmuşdur:

1. Bir muğam ailəsinə daxil olub, onun variantlarında eyni ad altında ifa olunan eyni məqam əsaslı şöbələr (Rast muğam ailəsində "Üşşaq", "Hüseyni", "Vilayəti", "Şikəsteyi-fars"; Şur muğam ailəsində "Şikəsteyi-fars"; Segah muğam ailəsində "Manəndi-Müxalif", "Manəndi-Hasar", "Şikəsteyi-fars", "Mübərriqə").

2. Bir muğam ailəsinə daxil olub, onun variantlarında müxtəlif ad altında ifa olunan eyni məqam əsaslı şöbələr (Rast muğam ailəsində "Bərdaşt", "Əraq; "Şikəsteyi-fars", "Xocəstə" və "Əşiran").

3. Ayrı-ayrı muğamlarda eyni ad altında ifa olunan şöbələr ("Əmiri", "Şikəsteyi-fars", "Nişibü fəraz", "Üzzal").

4. Ayrı-ayrı muğamlarda müxtəlif ad altında ifa olunan eyni məqam əsaslı şöbələr ("Şikəsteyi-fars", "Əşiran", "Sarənc", "Üzzal", "Manəndi-Hasar"; "Vilayəti", "Şahnaz"; "Manəndi-Müxalif" və "Feli"; "Əraq", "Hüseyni", "Xavəran").

5. Bir muğam daxilində müxtəlif ad altında ifa olunan eyni məqam əsaslı şöbələr ("Rast"da "Mayə Rast", "Hüseyni; "Şur"da "Mayə Şur", "Şur-Şahnaz", "Şikəsteyi-fars", "Sarənc"; "Segah"da "Mayə Segah", "Manəndi-Hasar"; "Çahargah"da "Mayə Çahargah", "Hasar"; "Bayatı-Şiraz"da "Mayə Bayatı-Şiraz", "Bayatı-İsfahan").

Eyni bir şöbənin bir neçə muğamlarda ifa olunması, bu muğamlarda rəngarənglik və obraz təzadlığı yaradır ki, bu da muğamların inkişafında ən mühüm amillərdən sayılır. Apardığımız təhlillərdən aydın olur ki, Azərbaycan xalq musiqi nümunələrində olan məqam-tonal dəyişmələrinin hamısı müəyyən qayda çərçivəsində baş

verir. Bildiyimiz kimi, Azərbaycan xalq musiqisində bir məqamdan digər məqama keçid (intiqal) təhlil etdiyimiz ümumi şöbələr vasitəsilə baş verir.

**“Azərbaycan məqamlarının qohumluq münasibətlərində olan qanunauyğunluqlar”** adlanan ikinci paraqrafda məqamlararası qohumluq münasibətlərinin yaranması müəyyən səbəblərlə əlaqələndirilir ki, bunlardan dəstgah daxili və müxtəlif dəstgahlarda olan eyni və ya fərqli məqam əsaslı şöbələr, məqamlar arasında ortaq pərdələrin sayı və müştərək şöbələri qeyd etmək olar. Dissertasiyanın mövzusunun ana xətti bu paraqrafda yerləşir. İlk dəfə olaraq məqamlararası qohumluq münasibəti bir dəstgah daxilində deyil, Azərbaycan musiqisində olan bütün dəstgahlar arasında araşdırılır və dörd dərəcədə cəmləşir. Bildiyimiz kimi, qərb musiqi nəzəriyyəsində tonallıqların bir-biri ilə qohumluq münasibəti yaxınlıq dərəcələrinə görə sistemləşdirilmişdir. Bu dərəcələr əsasən açar işarələrinin say fərqinə görə qeyd olunur (Harmonik vəziyyətin yaratdığı çox işarə fərqli tonallıqları nəzərə almasaq). Belə bir prinsip Azərbaycan musiqisinə uyğunlaşa bilməz. Çünki Azərbaycan məqamları major və minor ladlarından fərqlənirlər. Bizim fikrimizcə Azərbaycan məqamlarında qohumluq dərəcələri muğamlara daxil olan fərqli istinad pərdəli və fərqli məqam əsaslı şöbələrin biri-biri ilə münasibətləri əsasında təyin olunmalıdır. Bu baxımdan bizim işimizdə məqamlar arasında qohumluq dərəcələri aşağıdakı şəkildə qeyd olunacaq:

1. Hər hansı muğamı təşkil edən şöbələrin məqamları muğamın əsas məqamına **I dərəcəli** qohum məqamlar hesab olunurlar.

2. Əgər muğamın mayə şöbəsi, hər hansı digər muğamı təşkil edən şöbələrdən biri ilə eyni məqam əsaslıdırsa və yaxud muğamın hər hansı şöbəsi digər muğamın mayə şöbəsi ilə eyni məqam əsaslıdırsa, onda o muğamların əsasını təşkil edən məqamlar **II dərəcəli** qohum məqamlar sayıla bilər.

3. Əgər hər hansı muğamı təşkil edən şöbələrdən biri (“Mayə” şöbəsindən başqa), digər muğamın şöbələri ilə (“Mayə” şöbəsindən başqa) eyni məqam əsaslıdırsa, onda o şöbələrin əsaslandığı məqamlar **III dərəcəli** qohum məqamlar kimi qeyd oluna bilərlər.

4. Əgər intiqal zamanı keçid birbaşa deyil, üçüncü və ya dördüncü şöbənin vasitəçiliyi ilə baş verirsə, onda ilk və son məqamlar **IV dərəcəli** qohum məqamlar hesab oluna bilərlər.

Avropa musiqi nəzəriyyəsində olan planlı modulyasiya prinsiplərini də Azərbaycan muğamlarına tətbiq etmək olar. Yəni qanunauyğun məqam planı qurub daha uzaq məqamlara intiqal etmək mümkündür. Lakin bizim işimizdə planlı intiqal nəzərdə tutulmamışdır.

**"Azərbaycan məqam sistemində mümkün olan intiqal prosesləri"** adlı üçüncü fəsil özündə məqamlararası intiqal prinsiplərini əks etdirir. Burada artıq praktiki cəhətdən intiqal keçidləri göstərilir.

Azərbaycan muğamlarının inteqrasiya xüsusiyyətləri xalq musiqisi ruhunda yazan bəstəkarlara daha çox önəmli olduğunu nəzərə alaraq, bütün intiqallar musiqi nümunələrində öz əksini tapmışdır. Bu musiqi nümunələri müəyyən ölçü əsasında, qeyd olunan keçidlərin əsas xüsusiyyətləri göstərilməklə, Ü.Hacıbəylinin elmi əsərində qeyd olunan "Xalq üslubunda Azərbaycan məqamlarında musiqi bəstələmək qaydaları"na uyğun olaraq bizim tərəfimizdən yazılmışdır. Bəzi məqamlarda olan keçidlər muğamlar vasitəsilə tar ifasında da öz təsdiqini tapmışdır.

Bu fəslin dörd paraqrafında yeddi əsas məqamların hər birinin inteqrasiya xüsusiyyətləri açıqlanır. **"Rast, şur və segah məqamlarından digər məqamlara keçid metodları"** adlı ilk paraqrafının üç bəndində bu məqamların digər məqamlara keçid xüsusiyyətləri açıqlanır.

Rast məqamının inteqrasiya xüsusiyyətləri araşdırılarkən məlum olur ki, bu məqamdan 20 müxtəlif keçidlər mümkündür. Onların arasında I, II və III dərəcəli intiqallara rast gəlmək olar. "Sol" mayəli rast məqamından" "do" mayəli rast, "si" mayəli segah, "mi" mayəli şur, "fa diyez" mayəli segah və "re" mayəli şüştər məqamlarına I dərəcəli, "si" mayəli segah, "si" mayəli şur, "re" mayəli bayatı-şiraz, "re" mayəli rast məqamlarına II dərəcəli və "sol" mayəli bayatı-şiraz, "do" mayəli hümayun, "lya" mayəli şur, "mi" mayəli şur, "re" mayəli şur, "mi" mayəli segah məqamlarına isə III dərəcəli qohum məqamlara intiqallar qeyd olunmaqla onların keçid yolları da göstərilir.

Şur məqamından daha çox məqamlara keçid etmək mümkündür ki, bunlar da üç qohumluq dərəcəsində birləşir. “Lya” mayəli şur məqamı ilə “si” mayəli segah, “do” mayəli rast, “fa” mayəli rast, “mi” mayəli segah, “re” mayəli şüştər məqamları I dərəcəli, “mi” mayəli şur, “re” mayəli şur, “fa diyez” segah, “sol” mayəli hümayun məqamları II dərəcəli, “sol” mayəli hümayun, “sol” mayəli rast, “do” mayəli rast, “re” mayəli rast, “lya” mayəli segah, “mi” mayəli segah, “do” mayəli bayatı-şiraz və “sol” mayəli bayatı-şiraz məqamları III dərəcəli qohumluq münasibətindədirlər.

Segah məqamı ilə qohumluq münasibətində olan məqamlar dörd qohumluq dərəcəsində ardıcıllaşırlar. “Si” mayəli segah məqamı ilə I dərəcədə “sol” mayəli rast, “fa diyez” mayəli segah, “sol” mayəli bayatı-şiraz və “re” mayəli şur məqamları, II dərəcədə “lya” mayəli şur, “mi” mayəli segah, “mi” mayəli şur, “sol” mayəli rast, “do” mayəli rast və “sol” mayəli bayatı-şiraz məqamları, III dərəcədə “sol” mayəli rast, “mi” mayəli şur, “re” mayəli şüştər, “re” mayəli çahargah, “do” mayəli hümayun, “re” mayəli bayatı-şiraz, “si bemol” mayəli bayatı-şiraz, “re” mayəli rast və “si” mayəli şur məqamları, IV dərəcədə isə yalnız “mi” mayəli bayatı-şiraz məqamı qohumluq münasibətində sayıla bilər.

Fəslin **“Şüştər və II növ hümayun məqamlarında mümkün olan keçidlər”** adlanan ikinci paraqrafının bəndlərində şüştər və II növ hümayun məqamlarından digər məqamlara intiqallar təhlil olunur.

Şüştər məqamı əvvəlki məqamlara nisbətən az inteqrasiya olan məqamlardandır. Burada cəmi doqquz fərqli məqamlara intiqal nəzərdə tutulur ki, bunlardan I dərəcəli qohum məqam kimi yalnız “sol” mayəli bayatı şiraz məqamı, II dərəcəli qohum məqam kimi “do” hümayun, “sol” mayıli rast, “lya” mayəli şur, “si” mayəli segah məqamları, III dərəcəli qohum məqam kimi “si” mayəli segah və “re” mayəli çahargah məqamları, IV dərəcəli qohum məqam kimi isə “si bemol” mayəli bayatı-şiraz və “mi bemol” mayəli bayatı-şiraz məqamları çıxış edirlər.

Hümayun məqamı yeganə məqamdır ki, heç bir məqamla II dərəcəli qohumluq münasibətində deyil. Bu da ondan irəli gəlir ki, digər muğam şöbələrindən heç biri hümayun məqamına əsaslanmır. “Do” mayəli hümayun məqamı ilə I dərəcəli qohum olan

məqamlardan “re” mayəli şüştər, “sol” mayəli bayatı-şiraz və “re” mayəli şur məqamlarını göstərmək olar. III dərəcəli qohum məqamlar sirasına “si” mayəli segah, “si bemol” mayəli bayatı-şiraz, “sol” mayəli rast, “lya” mayəli şur və “re” mayəli çahargah məqamlarını aid etmək olar. Yalnız “mi” mayəli bayatı-şiraz məqamı onunla IV dərəcəli qohumluq münasibətindədir.

**“Çahargah məqamının intiqal imkanları”** fəslin üçüncü paraqrafında araşdırılır. Bu məqam da digər məqamlara daha az inteqrasiya olunur. Bu da ondan irəli gəlir ki, bu məqamın rast və şur kimi geniş inteqrasiya xüsusiyyətlərinə malik olan məqamlarla heç bir münasibəti yoxdur. Buna baxmayaraq, çahargah məqamı digər məqamlarla bütün qohumluq dərəcələrinə malikdir. “Re” mayəli çahargah məqamı “lya” mayəli çahargah məqamı ilə I dərəcəli, “sol” mayəli çahargah, “sol” mayəli bayatı-şiraz, “lya” mayəli çahargah məqamları ilə II dərəcəli, “si bemol” mayəli bayatı şiraz, “si” mayəli segah, “re” mayəli şüştər, “do” mayəli hümayun məqamları ilə III dərəcəli, “mi bemol” bayatı şiraz məqamı ilə IV dərəcəli qohumluq münasibəti qurmuşdur.

Fəslin sonuncu – dördüncü paraqrafında **“bayatı-şiraz məqamının keçid prinsipləri”**nə toxunulur. Bayatı-şiraz məqamının intiqal xüsusiyyətləri daha rəngarəngdir. Burada bütün məqamlarla və bütün dərəcələrdə qohumluq münasibətlərini görmək olar. “Sol” mayəli bayatı-şiraz məqamı I dərəcəli qohumluq münasibətini “do” mayəli rast, “si” mayəli segah və “mi” mayəli bayatı-şiraz məqamları ilə, II dərəcəli qohumluq münasibətini “si” mayəli segah, “re” mayəli şüştər, “do” mayəli hümayun, “si bemol” mayəli bayatı-şiraz və “re” mayəli çahargah məqamları ilə, III dərəcəli qohumluq münasibətini “sol” mayəli rast, “lya” mayəli şur, “si” mayəli şüştər, “sol diyez” mayəli segah, “mi” mayəli şur, “mi” mayəli segah və “si” mayəli çahargah məqamları ilə, IV dərəcəli qohumluq münasibətini isə “mi bemol” mayəli hümayun, “fa” mayəli şüştər, “fa” mayəli çahargah və “re” mayəli segah məqamları ilə tənzimləmişdir.

**Tədqiqatın başlıca yekunları və əldə olunan nəticələr.** Azərbaycan muğamşünaslığı, Azərbaycan məqam nəzəriyyəsi və muğam ifaçılığı bizim dissertasiya işimizdən bəhrələnəcəyinə ümid

edirik. Tədqiqatımızın elmi-praktiki əhəmiyyəti aşağıda göstərilən nəticələrlə müəyyən edilə bilər:

1. Tədqiqatımızda qeyd olunan üsullarla xalq musiqimizdə də Şərq musiqi nəzəriyyəsinin termini olan "intiqal"ı tətbiq edərək muğam şöbələri vasitəsilə bir məqamdan (tonallıqdan) digər məqama (tonallığa) keçmək olur ki, bu keçid də müəyyən qanunauyğunluqlarla tənzimlənir. Bu üsul muğam ifaçılarına sərbəst melodik dönmələr etmələrinə imkan verməklə muğamlarımızın daha da rəngarəng ifasına şərait yaradır.
2. Bütün muğam şöbələrinin məqam əsaslarının təyin olunması muğamlar arasında əlaqələrin araşdırılması üçün geniş imkanlar açır.
3. Azərbaycan muğam sistemində müştərək şöbələrin təhlil olunması məqam nəzəriyyəsində mövcud olan bir sıra problemlərin həll olunmasında mühüm rol oynaya bilər
4. Azərbaycan musiqisinin səs sistemi haqqında Üzeyir bəyin əsərlərindən götürülmüş fikirlərini əsas gətirərək, şifahi xalq musiqisində qeyri-müntəzəm temperasiyalı səs sisteminə uyğunlaşmaq üçün şərait yaranır.
5. Muğamlar arasında qohumluq əlaqələri müəyyənləşdirilir və bu əlaqə Avropa musiqi sistemindəki qohum tonal prinsiplərindən fərqli şəkildə tənzimlənir.
6. Azərbaycan məqamları əsasında əsər yazan bəstəkarlar tədqiqatlarımızdan bəhrələnərək müəyyən qanunauyğunluqlar əsasında əsərlərində daha çox məqam rəngarəngliyi yarada bilər.
7. Azərbaycan musiqisinin milli harmoniyasının xüsusiyyətləri təyin olunarkən, harmoniya elminin əsas sahələrindən olan "Yönəlmə və modulyasiya" bölməsində tədqiqatımızın nəticələri əsas götürülə bilər.
8. Muğamların intiqal xüsusiyyətlərini yeni qanunauyğunluqlarla təqdim olunması Azərbaycan muğamlarının təkmilləşməsində mühüm rol oynaya bilər.
9. Tədqiqatımızda araşdırılan "muğamların intiqal xüsusiyyətləri" bölümünə əsasən, yeni muğamlar yarana bilər ki, bu da beynəlxalq musiqi aləmində "Azərbaycan muğamları" kimi bir ifadəni daha da əsaslandırar.

**Dissertasiyanın elmi nəticələri müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır**


1. Şıxəliyev İ.N. Ü.Hacıbəylinin məqam nəzəriyyəsinin layiqli davamçısı – M.C.İsmayılov // – Bakı: Musiqi Dünyası, – 2014. – №3 (60), – s. 32-36.
2. Şıxəliyev, İ.N. Musiqinin riyazi ifadəsi // Bakı: Mədəni həyat, – 2015. – № 1, – s. 37-41.
3. Şıxəliyev, İ.N. Azərbaycan musiqisinin lad nəzəriyyəsi / İ.N.Şıxəliyev. – Sumqayıt: Zərdabi, – 2015. – 171 s.
4. Шихалиев, И.Н. Ладовая теория азербайджанской музыки / И.Н.Шихалиев. – Сумгаит: Зардаби, – 2015. – 183 с.
5. Şıxəliyev, İ.N Azərbaycan məqamlarında alterasiya və xromatizm və onların əmələ gəlmə səbəbləri. // "Azərbaycanda muğam elmi: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq elmi simpoziumun materialları, – Bakı: – 7 mart – 9 mart, – 2018, – s.67-74.
6. Şıxəliyev, İ.N. Azərbaycan muğamlarında olan müştərək şöbələrin oxşar və fərqli xüsusiyyətləri // Elmi əsərlər, ADMİU, – 2018. № 25, – s.112-123
7. Şıxəliyev, İ.N. Azərbaycan muğam adlarının təfsiri məsələləri // Konservatoriya, – 2018, № 3, – s. 8-13.
8. Şıxəliyev, İ.N. Azərbaycan məqamları arasında qohumluq münasibətləri silsiləsindən. Şur məqamı // Mədəniyyət.AZ, – 2019, – may-uyun, – 2019. // s.70-76.
9. Şıxəliyev, İ.N. Azərbaycan məqamlarının qohumluq münasibəti // Konservatoriya, – 2019. № 1, – s. 4-9.
10. Шихалиев, И.Н. Развитие ладовой теории Азербайджанской музыки в XX-XXI вв // International Journal of Innovative Technologies in Social Science, – 2019. № 3, c. 40-45.
11. Şıxəliyev, İ.N. Azərbaycan məqam sistemində rast məqamının qohumluq münasibətlərinə dair // Konservatoriya, – 2019. № 3, – s. 24-34.

10. Шихалиев, И.Н. Развитие ладовой теории Азербайджанской музыки в XX-XXI вв // International Journal of Innovative Technologies in Social Science, – 2019. № 3, с. 40-45.
11. Şıxəliyev, İ.N. Azərbaycan məqam sistemində rast məqamının qohumluq münasibətlərinə dair // Konservatoriya, – 2019. № 3, – s. 24-34.
12. Şıxəliyev, İ.N. Azərbaycan məqamları arasında qohumluq münasibətləri silsiləsindən. Şüştər məqamı // Elmi əsərlər, ADMİU, – 2019. № 27, – s.77-82.
13. Şıxəliyev, İ.N. Azərbaycan məqamları arasında qohumluq münasibətləri silsiləsindən. Çahargah məqamı // Mədəniyyət dünyası, – 2019. – № XXXVII, – s. 81-87.
14. Şıxəliyev, İ.N. Azərbaycan musiqisinin məqam nəzəriyyəsi / İ.N.Şıxəliyev. – Sumqayıt: Zərdabi, – 2020. – 177 s.
15. Shikhaliyev, İ. Azerbaycan makamlarının modülasyon özellikleri açısından Hümayun incelenmesi // Türk Müziği, – 2023. –Cilt 3, – Sayı 4, – s. 421-428.
16. Shikhaliyev, İ. Azerbaycan makamlarının akraba bağı kavramında ortak derecelerin rolü // Uluslararası İpekyolu Müzik ve Sanat Konferansı, – Ankara: – 1 kasım – 3 kasım, – 2023, – s.401-410.
17. Шихалиев, И.Н. У.Гаджибеков как последователь средневековой восточной теории музыки // Научный форум: Филология, искусствоведение и культурология: сб. ст. по материалом LXXIX международной научно-практической конференции, – Москва: – 14 март, – 2024. – с. 66-75.





24

Dissertasiya müdafiəsi 28 oktyabr 2025-ci il tarixində saat 11:00 Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.09.2025

Kağız formatı: 60x84 1/16

Həcm: 38340 işarə

Tiraj: 100